***TƏRBİYƏ TEXNOLOGİYALARI***
***UPBRINGING TECHNOLOGIES***
***ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***

*UOT 371.*

***Qafar Ələsgər oğlu Əsgərzadə***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi pedaqogika kafedrasının müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*E-mail: qafar.askerzade@bk.ru*
*https://orcid.org/0009-0004-3333-7459*
*https://doi.org/10.69682/arti.2025.92(3).91-94*

# ŞAGİRDLƏRİN ESTETİK TƏRBİYƏSİNDƏ TELEVİZİYANIN ROLU

***Gafar Alasgar Asgarzadeh***
*doktor of philosophy in pedagogy*
*teacher of the department of General pedagogy*
*at Azerbaijan State Pedagogical University*

# ROLE OF TELEVISION IN THE AESTHETIC EDUCATION OF PUPILS

***Гафар Алескер оглы Аскерзаде***
*доктор философии по педагогике*
*преподаватель кафедры Общей педагогики*
*Азербайджанского Государственного Педагогического Университета*

# РОЛЬ ТЕЛЕВИДЕНИЯ В ЭСТЕТИЧЕСКОМ ВОСПИТАНИИ УЧАЩИХСЯ

**Xülasə.** Müasir dövrdə aparılan televiziyaların tədqiqatları göstərir ki, televiziya məktəbli uşaqların estetik tərbiyəsinə güclü təsir göstərir, onların müəyyən dünya görüşlərinin formalaşmasına səbəb olur. Buna görə də müəllimlər, televiziya işçiləri və valideynlərin sıx əlaqəsi gənc nəslin estetik tərbiyəsinə mühüm təsir göstərəcəkdir.
***Açar sözlər:*** *Televiziya, estetik tərbiyə, dünya görüşü, intellekt, informasiya, qavrayış, pedaqogika*

**Abstract.** Research into television programs conducted at the present stage shows that television has a strong influence on the aesthetic education of schoolchildren, shaping certain worldviews in them. Therefore, the close relationship between teachers, television workers, and parents will have a significant impact on the aesthetic education of the younger generation.
***Keywords:*** *Television, aesthetic education, worldview, intelligence, information, perception, pedagogy*

**Аннотация.** Исследования телевизионных передач, проводимые на современном этапе, показывают, что телевидение оказывает сильное влияние на эстетическое воспитание школьников, формируя у них определённые мировоззрения. Поэтому тесная взаимосвязь педагогов, работников телевидения, а также родителей, окажет значительное влияние на эстетическое воспитание подрастающего поколения.
***Ключевые слова:*** *телевидение, эстетическое воспитание, мировоззрение, интеллект, информация, восприятие, педагогика*

Danılmaz faktdır ki, bu gün elmi-tərəqqinin sürətli inkişafı şəraitində elektron kütləvi informasiya vasitələri, xüsusən, televiziya həyatımıza daha dərindən nüfuz edərək, gənc nəslin

daxili mənəviyyatının və şüurunun yüksəldilməsinə, eləcə də onların bədii – estetik mədəniyyətinin yüksəldilməsinə, bədii – estetik tərbiyəsinin inkişafına güclü təsir göstərir.

Televiziya daha geniş auditoriyanı əhatə etməklə, müxtəlif səpkili informasiyaların və televiziya verilişlərinin əsas yayım vasitəsidir. Bədii-mənəvi dəyərlərin, eləcə də milli və ümumbəşəri dəyərlərin yaradıcısı və yayıcısı kimi televiziya incəsənətin demək olar ki, bütün növlərinin funksiyasını, həmçinin kütləvi informasiya vasitələrinə xas olan və onun tərkib hissəsini təşkil edən bədii yayım funksiyasını özündə birləşdirir. Gənc nəslin mədəni, intellektual və emosional inkişafına güclü təsir edən televiziya məktəblilər və yeniyetmələrin bədii sənət növlərinə qovuşmasında, onların idrakında xüsusi rol oynayır.(7)

Son tədqiqat işləri göstərir ki, sistemsiz olaraq şagirdlər tərəfindən qəbul edilən geniş həcmli planlaşdırılmamış informasiya seli bəzən onların inkişafına, estetik mədəniyyətinin yüksəldilməsinə mənfi təsir göstərir. Belə halların baş verməsində çox təəssüf ki, bəzi televiziya verilişləri də öz təsirini göstərir.

Bədii teleinformasiyanın həcminin əhəmiyyətli dərəcədə artması məktəblilərdə və yeniyetmələrdə informasiyanın qavranılması, təhlili və qiymətləndirilməsi üçün müvafiq intellektual səylər tələb edir. Bu işdə televiziyada çalışan yaradıcı insanların rolu əvəzolunmazdır.

Estetik mədəniyyət daşıyıcısı və yayıcısı kimi televiziyanın rolu, məhz müasir səviyyəli, yüksək aktuallıq kəsb edən nəzəri və praktiki problemlərinin təhlili və tədqiqi demək olar ki, hələ də həlli baxımından müzakirə mövzusudur. Burada, hər şeydən əvvəl, məktəblilərin və yeniyetmələrin yaş səviyyəsinə uyğun olaraq televerilişlərin, telefilm və tamaşaların, maarifləndirici teleçarxların seçilib artırılması, onun əhəmiyyəti və təhlili kimi praktiki məsələlərə xüsusi diqqət verilməsi zəruriliyi yaranır. Unudulmamalıdır ki, gənclər, məktəblilər televiziyaya bütövlüklə kortəbii olaraq baxırlar. Bu mühüm sahə bir qayda olaraq pedaqoji kollektiv tərəfindən nəzarət və idarə olunmur. Reallıq odur ki, şagirdlər özlərinin hələ də estetik mədəniyyət və tərbiyəsinin inkişafı və təşkili sahəsində televiziyadan, televiziya verilişlərindən istifadə imkanlarına tam hazır deyillər.

Zənnimizcə, bu məsələ ilə əlaqədar olaraq aşağıdakılar nəzərə alınmalıdır: şagirdlərin və yeniyetmələrin bədii təhsil və estetik tərbiyəsi məqsədilə incəsənətlə bağlı televiziya verilişlərindən məqsədyönlü istifadə edilməsi; incəsənətin əsas növ və janrlarını əhatə edən bədii silsilə verilişlərin şagirdlərə və yeniyetmələrə estetik təsirinin kompleksliyi; televiziyanın öyrədən və tərbiyə edən amillərinin birləşdirilməsi; milli mədəniyyət və incəsənətə dair televerilişlərin xüsusiyyətinin nəzərə alınması; şagirdlərin və yeniyetmələrin psixoloji yaş və fərdi cəhətləri; kollektiv mənəvi ünsiyyət prosesində qarşılıqlı öyrənmə və tərbiyə; şagirdlərin və yeniyetmələrin praktiki fəaliyyətinin stimullaşdırılması və onların yaradıcı təşəbbüskarlığı; televiziyaların maarifləndirici funksiyalarının təkmilləşdirilməsi və yeni innovasiyaların tətbiqi.

Şagirdlərin, yeniyetmələrin, bütövlükdə isə gənclərin estetik mədəniyyətinin yüksəldilməsində və tərbiyəsində televiziyanın bütün imkanlarından tam istifadə edilməsi formalaşmaqda olan gənc nəslin bütöv harmonik inkişafına, milli idrak və təhtəl şüurunun inkişafına imkan verir. Bu isə öz növbəsində gənclərin bütövlükdə kamil şəxsiyyət kimi formalaşmalarında başlıca amildir.(9) Gələcəkdə bədii informasiyanın fəal qəbulu üçün lazım olan şərtlərin müəyyən edilməsi xüsusi əhəmiyyət kəsb edir:

İncəsənətlə bağlı televiziya verilişləri üçün xüsusi meyarlar mövcuddur. Bunlardan ən əsası verilişlərin yüksək ideya – bədii səviyyəliliyi, şagirdlərin və yeniyetmələrin yaş xüsusiyyətlərinə uyğun onların tələbatı və janr – tematik maraqlarının uçotu, bədii informasiyaların təlim – tərbiyə məsələlərinə uyğunluğu, televeriliş materiallarının seçilib məktəblərin estetik – tərbiyə sisteminə qoşulması imkanlarıdır.(10)

Kütləvi informasiyanın spesifik diferensial fazalı qəbulu nəzərə alınmaqla şagirdlərin və yeniyetmələrin televerilişlərlə ünsiyyətində pedaqoji rəhbərlik mərhələlərə bölünür. Hər bir mərhələyə müəyyən vəzifə, işin forma və metodikası uyğun gəlir. Şagirdlərin və yeniyetmələrin ümumi psixoloji-pedaqoji hazırlığı, televiziya vasitəsilə incəsənətlə bağlı biliklərin genişləndirilməsi və kütləvi informasiya vasitələrinin spesifikliyi, televiziya tamaşaçılarının mədəni təcrübə və vərdişlərinin formalaşması əsas mərhələni təşkil edir.

Növbəti mərhələdə isə, didaktika elementləri ilə şəxsi metodikanı özündə birləşdirən bədii informasiyanın qəbulunda xüsusi psixoloji-pedaqoji hazırlıq nəzərdə tutulur. Çevik taktiki şərh, şagirdlərə və yeniyetmələrə fərdi-psixoloji yanaşma zamanı qəbul edilən informasiyanın məqsədəuyğunluğu, estetik obyektlə ünsiyyətdən faydalanma və düşünmə atmosferi yaradılması da unudulmamalıdır.

Daha sonrakı mərhələ isə hiss, emosiya, təəssüratı aşkar etmək və onları möhkəmləndirməkdən ibarətdir. Belə ki, bu zaman bədii informasiyanın qavranılması və dərk edilməsi davam etdirilir, biliklər genişləndirilir, şagirdlərin və yeniyetmələrin əxlaqi-estetik mülahizələri və təsəvvürləri qiymətləndirilir. Şagirdlərdə telemaraqlar çox zəif və pərakəndə haldadır. Belə ki, müasir gənclərin əksər hissəsi estrada-əyləncə və intellektual proqramlarına, müxtəlif kinofilmlərə, cüzi hissəsi isə incəsənət verilişlərinə (ədəbiyyat, teatr, rəssamlıq, heykəltəraşlıq, balet və s. ) və təhsil proqramlarına maraq göstərirlər. Bu isə əslində gənc nəslin görüş dairəsinin inkişafına mane olur. Ona görə də elə bir şərait yaradılmalıdır ki, həm pedaqoji kollektiv, həm də valideynlər gənc nəslin incəsənət, ədəbiyyat, təhsil və digər aktual verilişlərə baxmağa istiqamətləndirilməsi üçün optimal imkana malik olsunlar. Bu işdə televiziya işçiləri də öz fəallığını artırmalıdırlar. Belə ki, televerilişlər və proqramlar hazırlanarkən müasir gəncliyin maraq və istəkləri nəzərə alınmalıdır. Bunun üçün telekanallarla məktəblər arasında fəal birliyə nail olmaq lazımdır. Məhz televiziya verilişləri vasitəsilə şagirdlərdə və yeniyetmələrdə bədii emosiya və hisslərin aşılanmasına, estetik mədəniyyətlərinin yüksəldilməsinə nail olmaq mümkündür. Onlar arasında tez-tez sorğuların keçirilməsi də məqsədəuyğundur.

Televiziya daha geniş kütləni əhatə etdiyi üçün belə sorğuların onlar tərəfindən aparılması daha məqsədəuyğun, daha səmərəli olar. Bunu da unutmaq olmaz ki, şagirdlər və yeniyetmələr televiziya verilişlərinin mənəvi-estetik istiqamətini, onların ideya bədii məğzini kifayət qədər dərk edə bilmədiklərindən, televerilişlərin məntiqi təhlilini verməkdə, bədii məfkurəni anlamaqda və verilişlərə müstəqil qiymət verməkdə çətinlik çəkirlər. Məhz buna görə də istənilən nəticəni əldə etmək üçün şagirdləri və yeniyetmələri televerilişlərin qəbulu səriştəliliyi, onların estetik tərbiyəsinin forma və üsulları, gənclər və məktəblilər üçün hazırlanan televerilişlərin bədii-pedaqoji imkanları nəzərə alınmalıdır. Bu məsələləri həyata keçirərkən televiziya işçiləri və müəllimlər şagirdlər üçün birgə mühazirələr və görüşlər təşkil etməli, onlara televiziyanın spesifikliyi, proqramların strukturu, televerilişlərin seçimi, baxışı və s. haqqında məlumat verilməlidir. Bununla yanaşı, müntəzəm olaraq mini proqramlar da (incəsənət, ədəbiyyat, təhsil və s.) hazırlamaq məqsədəuyğun olar. Belə teleproqramların hazırlanmasında həm şagirdlər, həm də müəllimlər iştirak etməlidirlər.

Son zamanlar televiziyaların bu məsələlərə xüsusi yer ayırması, verilişlər təşkil etməsi çox fərəhlidir. İstər milli televiziyada, istərsə də bəzi özəl telekanallarda hazırlanan intellektual, maarifləndirici verilişlər, eləcə də aparılan tok-şoular da məhz bu problemlərin həllinə yönəldilmişdir. Bütün bunlarla yanaşı, eksperiment kimi, şagirdlərə və yeniyetmələrə müxtəlif tematik mövzular vermək, onların hazırladıqları ssenari, oçerk, teleesse və s. televiziyada nümayiş olunmalıdır. Bu, ilk növbədə həm gənc nəslin estetik mədəniyyətinin yüksəldilməsində öz təsirini göstərər, həm də dövrün tələblərinə cavab verən verilişlər hazırlanarkən gənc nəsli düşündürən problemlər nəzərə alınar. Bu da televerilişlərin həm rəngarəng, həm də baxımlı olmasına şərait yaradar, maraq kəsb edər. Televiziya verilişləri vasitəsilə gənc nəslin estetik mədəniyyətinin yüksəldilməsi və tərbiyəsi hazırda aparılan təhsil islahatlarına tam uyğunlaşdırılmalı və onun prinsipləri əsas kimi qəbul edilməlidir.

**Problemin aktuallığı.** Yaşadığımız müasir həyat özü araşdırılan bu sahədə tərbiyə və təhsildə zamanın tələbinə uyğun dəyişikliklərin edilməsini diktə və zəruri edir. Odur ki, məktəb, ailə, televiziya, digər kütləvi informasiya vasitələri daimi dəyişiklikdə olan məktəbli şəxsiyyətinin formalaşdırılmasına güclü təsir göstərən ən əsas komponentlərdən hesab olunur. Çünki, televiziya incəsənətin müxtəlif növləri ilə qarşılıqlı əlaqədə olan çox funksiyalı sistemdir. Onun əsasında şifahi sözün, dinamik təsvirin və musiqinin sintezi durur. Televiziya məhz bunların vasitəsilə gənc nəslin mənəvi aləminə, təfəkkürünə estetik təsir göstərir. Bu baxımdan şagirdlərin və yeniyetmələrin tərbiyəsində və estetik mədəniyyətinin yüksəldilməsində televiziyanın rolunun durmadan artması qanunauyğun hadisə kimi səciyyələndirilir.

**Problemin elmi yeniliyi.** Məktəblərdə bu problemin mövcud vəziyyəti, onun öyrənilməsi və ümumiləşdirilməsi, estetik tərbiyənin pedaqoji prob-

lem kimi tədqiq edilməsi, şagirdlərin və yeniyetmələrin estetik mədəniyyətinin yüksəldilməsində müasir televiziyanın rolu və onun təsir imkanlarının aşkar edilməsi, televiziyalar ilə məktəblərin iş birliyinin zəruriliyi elmi-nəzəri baxımdan əsaslandırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Tədqiq edilən problemlə əlaqədar hazırkı real şəraitə uyğun olaraq müəyyənləşdirilən mövcud iş sisteminin televerilişlər vasitəsilə şagirdlərin və yeniyetmələrin estetik tərbiyəsinin inkişafına təsir göstərməsidir. Müəyyənləşdirilən bu iş sistemi, səmərəli forma və istiqamətlər, təklif olunan tövsiyələr mövcud problem dairəsində uğur qazanmağa zəmin yaradır.

## Ədəbiyyat

1. Ağayev Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Monoqrafiya. / Ə. Ağayev, V. Rzayev. -Bakı: Avropa,- 2005.- 288 s.
2. Əhmədov N. Yeniyetmələrin estetik tərbiyəsi. -Bakı: Elm, -1974.- 32 s.
3. Kazımov N. Tərbiyənin elmi-pedaqoji əsasları. -Bakı: Maarif, -1983.- 135 s.
4. Quliyev E.H. Televiziya iki əsrin ayrıcında. -Bakı: İşıq, -1993.- 286 s.
5. Məhərrəmov Q.M. Televiziya haqqında etüdlər. -Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, -1996.- 215 s.
6. Абека-Нюнде Селестине. Роль телевидения в формировании личности молодого человека: /Автореферат кан.фил.наук/ -Москва, 1980.- 165 с.
7. Верб М.А. Формирование эстетических ориентаций старших школьников: Учебное пособие. -Ленинград:1976.-82 с.
8. Гафар Аскерзаде, Акиф Таваккюльоглы. История Азербайджанской журналистики. -Баку: ABC polygraph,- 2015.- 455с.
9. Каюмов А.А. Радио и телевидение как средство идейно-политического воспитания учащихся-старшеклассников: /Автореф. На соиск. дис. … канд. пед. наук/ -Москва, 1974.- 21 с.
10. Leonard H.Clark,Irving S.Star. Secondary and middle school teaching methods. (Fifth Edition): -New-York: 1986.- pp 125-142

**Redaksiyaya daxil olub:** 20.05.2025